# Dahi şəxsiyyətlər əbədiyaşar olurlar



Hər bir xalqın tarixində və taleyində unudulması mümkün olmayan hadisələr çox, şəxsiyyətlər isə az olur. Tarixə yazılan şəxsiyyətləri zaman da unutmur, ictimai-siyasi burulğanlarda varlığını qoruyub saxlayan xalq da. Təbii ki, talelərə yazılan sərt sınaqlardan əzmlə çıxaraq xalqın sevimlisinə çevrilmək o qədər də asan deyil, bunu tarix dəfələrlə təsdiqləyib. Bu şərəf, əlbəttə, çoxlarına nəsib olmayan xoşbəxtlikdir. İctimai-siyasi fəaliyyəti və bütövlükdə mənalı həyatı örnəyə çevrilən ulu öndər Heydər Əliyevin də məhz belə dahi şəxsiyyət kimi tanınmasını şərtləndirən amillər kifayət qədər çoxdur.

Xalqını və Vətənini canı qədər sevən bir tarixi şəxsiyyət əbədiyyətə yol başlamışdı. Bir qara karvan Fəxri xiyabana yön tutmuşdu, əbədi ziyarət edilmək, daim anılmaq üçün...

Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edənlərin çöhrəsində qəm-qüssədən sıyrılıb çıxan, təsəlliverici bir qürur da vardı. Bunun isə səbəbləri var. 1969-cu ildən Azərbaycanın mürəkkəb və taleyüklü qayğılarını çiyninə alaraq onu qısa bir zaman kəsiyində postsovet məkanında qabaqcıl respublikalardan birinə çevirən ulu öndər Heydər Əliyev sonradan xalqımızın ən parlaq siyasi siması, eləcə də dünya siyasi elitasının görkəmli şəxsiyyətlərindən biri kimi tarixə öz imzasını yazdı. İkinci dəfə hakimiyyətə qayıdanda ölkədə həllini gözləyən problemlərin böhran həddinə çatması onun siyasi əzmini qıra bilmədi, iradəsini sarsıtmadı. Ulu öndər Azərbaycanı sürətli inkişaf yoluna çıxartdı.

...Dünən səhər açılandan yaşından, vəzifəsindən asılı olmayaraq, ölkənin on minlərlə vətəndaşı ulu öndərə məhəbbətini ifadə etmək üçün yenə də Fəxri xiyabana gələrək məzarını ziyarət edirdi. Onlardan biri Mətanət Nəcəfova Naxçıvan MR-in Sədərək rayonunun Ermənistan tərəfindən işğala məruz qalan Kərki kəndindəndir. Məcburi köçkünlərə dövlət qayğısının dünyada nümunəyə çevrildiyini bildirən həmsöhbətimiz dedi ki, torpaqlarımızın işğaldan azad olunmasına inanır: “Dövlətimizin iqtisadi, hərbi gücü Ermənistanı vahimələndirir. Son zamanlar, xüsusən bu il aprelin əvvəllərində qısamüddətli həmlə göstərdi ki, Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə hər an hazırdır! Ulu öndərin siyasi kursunun layiqincə davam etdirilməsi bizdə bu inamı yaradır ki, tezliklə düşmən üzərində qələbə çalacağıq. Həsrətini çəkdiyimiz, yerlə-yeksan olunmuş yurdlarımıza dönəcəyik”.

Gəncliyin təmsilçilərindən biri Ülviyyə Salmanova anası Rəna xanımla Ukrayna Respublikasının paytaxtından Bakıya gəlib. İxtisasca jurnalist olan Ülviyyə Fərhadqızı ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında təhsil aldığı ali məktəbdə hər il anım tədbirinin keçirildiyi və orada Azərbaycan-Ukrayna dostluq əlaqələrinin tarixi ənənələrə söykənməsi barədə məlumat verildiyini xatırladı: “Əlbəttə, bu əlaqələrin daha möhkəm zəmin üzərində davam etdirilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətlə bağlıdır. Həmin siyasəti bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Dünya Azərbaycanlılarının da Prezidenti olan İlham Əliyev Vətənimizdən kənarda çox sevilir və ölkəmizin inkişafı naminə yürütdüyü siyasət birmənalı şəkildə dəstəklənir. Qarşıdan 31 dekabr- Dünya Azərbaycanlılarının Həmrəylik Günü gəlir. Bu münasibətlə xalqımızı, dövlətimizin başçısını və dünyaya səpələnən soydaşlarımızı təbrik edirəm. Bu tarixi bayram da ümummilli liderin bizə yadigarlarından biridir”.

Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının məzunu, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin fəallarından biri olan Həbib Misirov bu gün gənclərə göstərilən diqqət və qayğının əsaslarının məhz ulu öndər tərəfindən qoyulduğunu xatırlatdı. Onun fikrincə, Azərbaycan xalqının rifahının yüksəlməsinə ömrünü həsr edən ümummilli lider Heydər Əliyevin bəşəri şəxsiyyət olması yeni tariximizin bütün səhifələrində özünü təsdiqləyir: “Yalnız böyük tarixi şəxsiyyətlərə hər yerdə maraq və ehtiram göstərilir. Ulu öndərin dünyada anılması onun məhz bu kateqoriyaya aid olduğunu təsdiqləyir. Dünyanın hər yerində ən yüksək səviyyədə ulu öndər barəsində xoş sözlər deyilirsə, bu, Heydər Əliyevin məhz dünya miqyaslı tarixi şəxsiyyət olmasının göstəricilərindəndir. Heydər Əliyevin tarixi rolu dünyada getdikcə daha böyük qiymət alır. Məhz buna görə müxtəlif ölkələrdə ulu öndərə abidələr qoyulur, muzeylər açılır... Axı, böyük şəxsiyyətlər bir xalqa aid olmurlar! Onlar bütün dünyaya məxsusdurlar. Məhz bu səbəbdən biz digər xalqların yetirdiyi dahi insanları öyrənir, tanıyır və sevirik. Öz əməli, xilaskarlıq missiyası ilə tarixdə silinməz izlər qoymuş şəxsiyyətlər azdır. Amma hər xalqın, millətin təkamül tarixində belə şəxsiyyətlər olub. Kifayət qədər mürəkkəb və keşməkeşli bir dönəmdə xalqının köməyinə çatan ulu öndər Heydər Əliyev də Azərbaycanın inkişaf tarixində məhz belə silinməz izlər qoyub. Onun titanik fəaliyyəti nəticəsində Azərbaycan dünyanın siyasi meydanında öz sözünü deyə bilən qüdrətli dövlətə çevrilib. Başqa xalqların, millətlərin əsrlərlə əldə etdiyini Azərbaycan xalqı bir neçə ilə gerçəkləşdirdi”.

“Dunya analar səsi” Vətəndaslara Dayaq İctimai Birliyinin üzvlərindən Dilbər Zeynalova, Minurə Hüseynova və təşkilatın sədri Sitarə Zeynalova da anım günü ürəkləri sözlə dolu görünürdülər. Onların fikrini Sitarə Zeynalova belə ifadə etdi: “Azərbaycan qadınlarını daim xoşbəxt görmək ulu öndər Heydər Əliyevin məqsədlərindən biri idi. Azad qadın obrazı da məhz ümummilli liderin siyasəti ilə ölkəmizdə yaradıldı. Bütün sahələrdə qadına verilən dəyər daim seçilib. Bu gün qadınlarımız iş adamıdır, QHT rəhbəri, biznes sahəsinin mütəxəssisidirlər. Azərbaycan qadını diplomat kimi dünyada sayılıb-seçilir”.

Binəqədi Neft Şirkətinin operatoru Sona İsmayılova da ulu öndərin siyasi hakimiyyətdə olduğu hər iki dövrdə qadınlara göstərilən diqqətdən söz açdı: “Ümummilli liderin əbədiyaşarlığı müxtəlif səbəblərlə bağlıdır. Dünyanın qana bələndiyi bir zamanda Azərbaycan xalqı özünün xoşbəxt günlərini yaşayır, qurub-yaratmaq əzmi ilə çalışır. Hər bir dövlətin möhkəmliyi, sosial-iqtisadi qüdrəti onun vətəndaşlarının torpağa bağlılığından, vətənə sevgisindən, geniş elmi təfəkkürə, yüksək dünyagörüşünə, dərin biliyə, bacarığa, işgüzarlıq qabiliyyətinə və digər ali insani keyfiyyətlərə malik olmasından çox asılıdır. Bu ali keyfiyyətlər xalqımızda formalaşıb və buna ümummilli liderin siyasi kursu səbəb olub”.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Mehbalı Kərimovla Nazim Hümbətov, eləcə də Borçalı mahalından gəlmiş Sədət Səmədova və digərləri dövlət müstəqilliyinin bərpasından ötən 25 il ərzində xalqımızın və dövlətimizin keçdiyi yola nəzər saldılar. Onlar bütün bu inkişafdan qürur duyduqlarını, Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin 20 faizinin işğal edilməsi, bir milyondan artıq insanın respublikamızda qaçqın-köçkün vəziyyətinə düşməsi, o zaman Azərbaycanın iqtisadi cəhətdən zəif bir ölkə olduğuna görə yaranan sosial problemlərdən xilası barədə fikirlərini bölüşdülər. Qeyd edildi ki, ümummilli lider hər bir çətinliyin aradan qaldırılmasına nail oldu. Məhz ona görə də bu gün Azərbaycan yerləşdiyi regionun lideri sayılır.

Həmsöhbətimiz Nəsibə Əliyeva Respublika Qadınlar Cəmiyyəti Bakı şəhəri Suraxanı rayon şöbəsinin sədri, həm də şəhid ailəsidir. Ömür-gün yoldaşı 12 dekabr 1993-cü il tarixində döyüşlərə atılıb, düşmənə layiqli cavab verərkən hədəf seçilərək şəhidlik zirvəsinə ucalıb: “Ulu öndər Heydər Əliyev torpaq, Vətən uğrunda canından keçən hər bir şəhid ailəsinin yanında olub, öz diqqət və atalıq qayğısını əsirgəməyib. Bu gün dövlət başçısı İlham Əliyev də həmin yolu davam etdirir. Məhz həmin diqqət və qayğının nəticəsidir ki, şəhid ailələrində böyüyən oğlan uşaqlarının əksəriyyəti hərbi məktəblərdə təhsil alır, Vətənə zabit, komandir kimi qulluq edir, elə mənim oğlum kimi...”

Gün uzunu xalqımızın çoxsaylı nümayəndələri müasir dövlətimizin memarı və qurucusunun müqəddəs məzarını ziyarət etmək üçün dəstə-dəstə Fəxri xiyabana üz tutdular. Ziyarətçilər belə qüdrətli dövlətin banisi olduğu üçün ümummilli liderlə daim fəxr edəcəklərini dilə gətirib, ölkə Prezidentinin ətrafında bundan sonra da sıx birləşməklə, respublikamızın inkişafında öz əmək və zəhmətlərini əsirgəməyəcəklərini əminliklə ifadə edirdilər.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***